European Commission for the Efficiency of Justice
Commission européenne pour l'efficacité de la justice

COUNCIL OF EUROPE CONSEIL DE L'EUROPE

Strasburq, 12 dekabr 2014-cü il

CEPEJ (2014)16[1]

ƏDALƏT MÜHAKİMƏSİNİN SƏMƏRƏLİLİYİ ÜZRƏ AVROPA KOMİSSİYASI (CEPEJ)

SATURN Mərkəzinin Məhkəmə proseslərində vaxtın idarə olunması üzrə Rəhbər Qrupu (CEPEJ-SATURN)

# MƏHKƏMƏ PROSESLƏRİNDƏ VAXTIN İDARƏ OLUNMASINA DAİR DÜZƏLİŞLƏR EDİLMİŞ SATURN TƏLİMATLARI (2-ci düzəliş)

Əlavə I: AVROPADA MƏHKƏMƏ PROSESLƏRİNİN MÜDDƏTİNƏ MONİTORİNQ ÜZRƏ VAHİD TƏLİMATLAR (EUGMONT)

Əlavə II – İcmal Nümunələri

[1] Düzəlişlər edilmiş bu mətn CEPEJ-in 24-cü plenar iclasında (Strasburq, 11-12 dekabr 2014-cü il) qəbul edilmişdir. Bu versiyaya, həmçinin, dövlət ittihamçıları üçün nəzərdə tutulmuş xüsusi bölmə daxildir.

## Giriş

**1.**Bu təlimatları tətbiq etmək niyyətində olan bütün milli məhkəmə administrasiyaları öz yurisdiksiyalarında olan məhkəmələr tərəfindən istifadə olunan məhkəmə proseslərində vaxtın idarə olunması vasitələri ilə SATURN təlimatları arasında müqayisəli təhlil aparmalı, icra edilməyən SATURN təlimatlarını müəyyənləşdirməli, habelə, onların həyata keçirilməsi və təkmilləşdirilməsinə dair səmərəli strategiyalar işləyib hazırlamalıdırlar.

**2.**Məhkəmə proseslərində vaxtın idarə olunmasına dair SATURN təlimatları tərcümə edilməlidir və bütün üzv ölkələrin bütün məhkəmələri, məhkəmə administrasiyaları, ədliyyə nazirlikləri, yerli və milli vəkillər assosiasiyaları, dövlət ittihamçıları, polis cinayət bölmələri, zərərçəkənlərə yardım təşkilatları və digər istifadəçi təşkilatlar, eləcə də, hüquq-mühafizə orqanları bu təlimatlarla təmin edilməlidir. Bütün istifadəçilər bu təlimatları qaydasınca istifadə etməyə yönləndirilməlidirlər.

## I HİSSƏ: MƏHKƏMƏLƏR ÜÇÜN TƏLİMATLAR

### I.Ümumi prinsiplər və təlimatlar

### A.Şəffaflıq və qabaqcadan təxmin edilə bilmə

1.Məhkəmə sisteminin istifadəçiləri məhkəmə proseslərində vaxtın idarə olunması prosesinə cəlb olunmalıdırlar.

2.İstifadəçilərə məhkəmə proseslərinin müddətinə təsir edən hər bir amil barədə məlumat verilməlidir və müvafiq olduğu təqdirdə, onlarla məsləhətləşmələr aparılmalıdır.

3.Məhkəmə proseslərinin müddəti mümkün dərəcədə əvvəlcədən təxmin edilə bilən olmaılıdır.

4.Proseslərin müddəti barədə, xüsusən də hər bir prosesin növü üzrə ümumi statistik və digər məlumatlar geniş ictimaiyyətə açıqlanmalıdır.

### B.Optimal müddət

1.Məhkəmə proseslərinin müddəti optimal olmalıdır.

2.Məhkəmə proseslərinin müddətinin hədsiz uzun olmaması xüsusilə vacibdir və ictimaiyyətin marağındadır. Məhkəmə işləri həddən uzun çəkməməlidir. Həmçinin, bəzi şərtlər daxilində istifadəçilərin məhkəməyə müraciət etmək hüququna mənfi təsir edəcəyi təqdirdə məhkəmə işləri həddindən artıq qısa olmamalıdır.

3.Məhkəmə proseslərində vaxtın idarə olunması, istifadəçilərin öz davranışları əsasında müəyyən edilmədikdə, oxşar məhkəmə işlərinin müddətlərinin müəyyənləşdirilməsi ilə əsaslı fərqliliklərdən yayınmaqla qərəzsiz və obyektiv qaydada həyata keçirilməlidir.

4.Məhkəmə icraatının başladığı müddətdən etibarən istifadəçilərin bu məhkəmə prosesi vasitəsilə əldə etmək istədikləri məqsədlərin reallaşmasınadək davam edən məhkəmə prosesinin ümumi müddətinin səmərəli olmasına xüsusi diqqət yetirilməlidir.

### C.Planlaşdırma və məlumatların toplanması

1.Məhkəmə proseslərinin müddəti həm ümumi səviyyədə (ayrı-ayrı məhkəmə işi növlərinin orta davametmə müddətinin, yaxud müəyyən növ məhkəmələrdən əvvəl prosesin orta davametmə müddətinin planlaşdırılması), həm də konkret məhkəmə prosesi səviyyəsində planlaşdırılmalıdır.

2.İstifadəçilərlə məhkəmə proseslərində vaxtın idarə olunması, məhkəmə tarixlərinin müəyyənləşdirilməsi, yaxud bütün gələcək prosessual mərhələlərin vaxtının hesablanmasına dair məsləhətləşmələr aparılmalıdır.

3.Məhkəmə prosesinin müddətinin uzunluğu bütöv və yaxşı müəyyən edilmiş məlumat toplama sistemi vasitəsi ilə müşahidə edilməlidir. Bu sistem həm proseslərin müddəti haqqında ətraflı statistik məlumatı dərhal təmin edə, həm də həddindən artıq və qeyri-məqbul olan müddətlərin mənbəyində dayanan ayrı-ayrı hadisələri dəqiq müəyyən edə bilməlidir.

**D.Ehtiyaca uyğunlaşdırıla bilmə**

1.Ədalət mühakiməsinin həyata keçirilməsi müddətinin idarə olunması istifadəçilərin ehtiyaclarına xüsusi diqqət yetirilməklə, konkret məhkəmə proseslərinin tələblərinə uyğunlaşdırılmalıdır.

2.Qanunvericilik və ya digər ümumi aktlara əsasən normativ vaxt limitinin müəyyənləşdirilməsi konkret məhkəmə işlərində mümkün fərqləri nəzərə almaqla ehtiyatla həyata keçirilməlidir. Vaxt intervalı qanunvericilik əsasında müəyyənləşdirildiyi təqdirdə, intervalların səmərəliliyi və onlara riayət müntəzəm olaraq nəzarətdə saxlanmalı və qiymətləndirilməlidir.

3.Xüsusi növ məhkəmə işlərinin prioritet hesab edilməsi və ya təcili baxılması qanunla nəzərdə tutulursa, bu ümumi qayda məhkəmə prosesinin təxirəsalınmaz və ya prioritet hesab edilmə səbəbləri açıqlanmaqla məntiqi baxımdan məqbul çərçivədə təfsir edilməlidir.

**E.Bütün maraqlı tərəflərin hüquqi əməkdaşlığı**

1.Məhkəmə icraatının təşkilində, tənzimlənməsində, planlaşdırılmasında və həyata keçirilməsində iştirak edən bütün müəssisələr və şəxslər xüsusən etik qaydaları nəzərə almaqla, məhkəmə proseslərinin müddətinin[2] səmərəliliyi və əvvəlcədən təxmin edilə bilməsi ilə bağlı öhdəlik daşımalıdırlar.

2.Bu sənəddə öz əksini tapan prinsiplərin və təlimatların icrası üçün tələb olunan fəaliyyətlər qanunverici orqanlar, hakim dairələr və ədalət mühakiməsinin həyata keçirilməsi üzrə məsul qurumlar tərəfindən yerinə yetirilməlidir.

3.Ədalət mühakiməsinin həyata keçirilməsinə görə məsul mərkəzi orqanlar vaxtın səmərəli idarə olunması üzrə zəruri vasitələrin və şərtlərin mövcudluğunu təmin etmək, həmçinin, lazım gələrsə, tədbir görmək öhdəliyi daşıyırlar. Məhkəmə administrasiyası orqanları məlumatların toplanması və məhkəmə icraatının təşkilinin asanlaşdırılması vasitəsilə məhkəmə proseslərinin vaxtın idarə olunmasına köməklik göstərməlidirlər. Məhkəmə proseslərini həyata keçirən orqanlar proseslərin planlaşdırılmasında və təşkilində fəal surətdə iştirak etməlidirlər.

4.Hər bir məhkəmə işi üçün münasib vaxtın təyin olunmasında hüquqşünaslarla əməkdaşlığın əhəmiyyət kəsb etdiyi bütün yurisdiksiyalarda onlarla vaxt intervalları və son təhvil tarixlərinə dair bağlanan çərçivə müqavilələrinin olması müsbət qarşılanacaq.

[2] Çərçivə Proqramına nəzər salın: Məhkəmə sistemlərinin yeni hədəfi: hər bir məhkəmə işinin səmərəli və əvvəlcədən təxmin edilə bilən vaxt müddətində həyata keçirilməsi (CEPEJ(2004)19Düz2) və "CEPEJ Tədqiqatı N°3: Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsaslanan Avropa Şurasına üzv olan ölkələrdə məhkəmə proseslərinin müddəti (F. Calvez, 2012-ci ildə N. Régis tərəfindən yenilənmişdir–Avropa Şurası Nəşriyyatı) bax: www.coe.int/cepej

## II.Qanunvericilik orqanları və qərar vermək səlahiyyəti olan şəxslər üçün təlimatlar

### A.Resurslar

1.Məhkəmə sistemi daimi iş yükünü vaxtında icra etmək üçün kifayət qədər resursa sahib olmalıdır. Resurslar ehtiyaclara uyğun olaraq bölüşdürülməli və səmərəli istifadə edilməlidir.

2.İş yükündə gözlənilməz dəyişikliklər baş verdikdə, yaxud sistem məhkəmə işlərinə təcili surətdə baxılmasını təmin edə bilmədikdə istifadə edilə biləcək resurslar mövcud olmalıdır.

3.Məhkəmə sisteminin fəaliyyəti üçün tələb olunan resursların istifadəsinə dair qərarlar vaxtın səmərəli idarə olunmasını stimullaşdırmalıdır. Zəruri olduğu təqdirdə, ləngimələrin və həll edilməmiş işlərin qalmasının qarşısını almaq məqsədi ilə resursların sürətli və səmərəli şəkildə yenidən bölüşdürülməsi mümkün olmalıdır.

### B.Təşkilati məsələlər

1.Məhkəmə orqanları vaxtın səmərəli idarə olunmasını təqlid edəcək şəkildə təşkil edilməlidir.

2.Təşkilat daxilində məhkəmə proseslərində vaxtın idarə olunması və ya məhkəmə prosesləri üzrə öhdəliklər dəqiq müəyyən olunmalıdır. Əsas istiqamətlərin müəyyənləşdirilməsi, dəyişikliklərin qabaqcadan bilinməsi və məhkəmə proseslərinin müddəti ilə əlaqədar problemlərin qarşısının alınması məqsədilə məhkəmə proseslərinin müddətini müntəzəm olaraq təhlil edən bölmə fəaliyyət göstərməlidir.

3.Ədalət mühakiməsinin həyata keçirilməsinə təsir göstərən bütün təşkilati dəyişikliklər məhkəmə proseslərində vaxtın idarə olunmasına mümkün təsirilə əlaqədar tədqiq edilməlidir.

### C.Hüquq normaları

1.Qanunvericilik aydın, sadə, başa düşülən dildə olmalıdır və icrası həddindən artıq çətin olmamalıdır. Hüquqi normalara edilən dəyişikliklər yaxşı işlənib hazırlanmalıdır.

2.Hökumət yeni qanun layihəsini qəbul edərkən həmin qanunun yeni məhkəmə işlərinin həcminə təsirini tədqiq etməli, ləngimələrə və həll edilməmiş işlərin qalmasına səbəb ola biləcək qayda və nizamnamələrin qəbulundan çəkinməlidir.

3.Qanunvericilikdə baş verən dəyişikliklərin vaxtında və səmərəli həyata keçirilməsi üçün həm istifadəçilər, həm də məhkəmə orqanları həmin dəyişikliklər barədə əvvəlcədən məlumatlandırılmalıdır.

### D.Məhkəmə icraatı

1.Məhkəmə icraatı qaydaları səmərəli vaxt intervalına riayəti təmin etməlidir. Məhkəmə proseslərinin gərəksiz olaraq uzanmasına və daha da mürəkkəbləşməsinə yol açan qaydalara düzəlişlər edilməlidir və ya bu qaydalar ləğv edilməlidir.

2.Məhkəmə icraatı qaydaları Avropa Şurasının müvafiq tövsiyələrini, xüsusilə də, aşağıdakı tövsiyələri nəzərə almalıdır:

• məhkəmələrə müraciət etmək imkanlarının asanlaşdırılması tədbirləri haqqında R(81)7 saylı tövsiyə,

• məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üçün nəzərdə tutulan mülki prosessual hüquq prinsipi haqqında R(84)5 saylı tövsiyə,

• məhkəmələrdə artıq iş yükünün azaldılması və qarşısının alınması tədbirləri haqqında R(86)12 saylı tövsiyə,

• cinayət mühakimə icraatının sadələşdirilməsinə dair R(87)18 saylı tövsiyə,

• mülki və biznes məsələləri üzrə apellyasiya sistemlərinin və prosedurlarının fəaliyyətinin təqdim edilməsi və təkmilləşdirilməsi haqqında R(95)5 saylı tövsiyə,

• cinayət mühakimə icraatının idarə olunması haqqında R(95)12 saylı tövsiyə,

• yeni texnologiyalardan istifadə etməklə vətəndaşlara məhkəmə və digər hüquqi xidmətlərin göstərilməsi haqqında R(2001)3 saylı tövsiyə.

3.Prosedur qaydalarının hazırlanması və ya düzəlişlərin edilməsi zamanı bu prosedurları tətbiq edəcək şəxslərin rəyləri nəzərə alınmalıdır.

4.Prosedur ilk növbədə işin mahiyyəti üzrə olmalıdır, eyni zamanda istifadəçilərin iş üzrə ədalətli və açıq dinləmə hüququ təmin etməlidir.

5.Müvafiq olarsa, sürətləndirilmiş məhkəmə icraatından istifadə təşviq edilməlidir.

6.Müvafiq hallarda apellyasiya məhkəməsinə müraciət etmək imkanları məhdudlaşdırıla bilər. Müəyyən hallarda (məsələn, kiçik iddialarla əlaqədar olaraq) apellyasiya məhkəməsinə müraciət etmək hüququnun olmaması və yaxud apellyasiya şikayətinin verilməsi mümkünlüyünün aradan qaldırılması tələb edilə bilər. Açıq-aşkar əsassız olan apellyasiya iddiaları qəbuledilməz elan edilə, yaxud sadələşdirilmiş qaydada rədd edilə bilər.

7.Daha yüksək instansiyalı məhkəmələrə müraciət etmək imkanı yalnız bu məhkəmələrin diqqətinə və müzakirəsinə uyğun məhkəmə işləri ilə məhdudlaşdırılmalıdır.

## III.Ədalət mühakiməsinin həyata keçirilməsinə görə məsul orqanlar üçün təlimatlar

### A.Əmək bölgüsü

1.Ədalət mühakiməsinin həyata keçirilməsinə görə məsul olan bütün orqanlar (məhkəmələr, hakimlər, icraçılar), o cümlədən, peşəsi ilə əlaqədar olaraq məhkəmə proseslərinə cəlb edilən şəxslər (məsələn, ekspertlər və hüquqşünaslar), hər biri öz səlahiyyətləri çərçivəsində, vaxtın səmərəli idarə olunmasına görə öhdəlik daşıyırlar.

2.Ədalət mühakiməsinin həyata keçirilməsinə görə məsul bütün orqanlar standartların və hədəflərin müəyyənləşdirilməsi prosesində əməkdaşlıq etməlidirlər. Bu standartların və hədəflərin təkmilləşdirilməsi zamanı digər maraqlı tərəflər və məhkəmə sisteminin istifadəçiləri ilə də məşvərət aparılmalıdır.

### B.Monitorinq

1.Məhkəmə proseslərinin müddəti statistik məlumatlar vasitəsilə diqqətlə nəzərdən keçirilməlidir. Xüsusi növ məhkəmə işlərinin müddəti, eləcə də, məhkəmə icraatının bütün mərhələlərinin əhatə etdiyi müddət barədə kifayət qədər məlumat olmalıdır.

2.Xüsusi məhkəmə işi növləri və yaxud xüsusi məhkəmələrə dair standartlara və hədəflərə əməl edilməsi təmin olunmalıdır.

3.Ayrı-ayrı məhkəmə icraatları üzrə məsul orqan müəyyənləşdirilmiş, yaxud prosesin digər iştirakçıları ilə razılaşdırılmış vaxt intervallarına əməl edilməsinə nəzarət etməlidir.

4.Monitorinq Avropada Məhkəmə Proseslərinin Müddətinə Monitorinq üzrə Vahid Təlimatlara (EUGMONT) müvafiq qaydada həyata keçirilməlidir.

**C.Müdaxilə**

1.Məhkəmə proseslərinin müddətinə dair standartlardan və ya hədəflərdən yayınmalar müşahidə edildiyi və ya əvvəlcədən aşkarlandığı təqdirdə, bu cür yayınmaların səbəblərini aradan qaldırmaq üçün təcili tədbirlər görülməlidir.

2.Ümumi davametmə müddəti ilə məqbul vaxt çərçivəsində insan hüquqlarının pozulmasına şərait yaradan işlərə xüsusi diqqət yetirilməlidir.[3]

3.Monitorinq məhkəmə proseslərində fəaliyyətsizlik dövrünün (gözləmə müddətinin) həddən artıq uzun çəkməməsini təmin etməli, məhkəmə prosesinin müddətinin bu cür uzanması halları müşahidə edilərsə, prosesin sürətləndirilməsi və ləngimələrin kompensasiya edilməsi üçün xüsusi səy göstərilməlidir.[4]

**D.Yeni texnologiyaların istifadəsi**

1.Məhkəmə proseslərinin müddətinin azaldılması məqsədilə, xüsusilə də, məhkəmə işlərinin idarə olunması üçün onların gedişatı müddətində məhkəmədə yeni texnologiyaların, əsasən də aşağıdakıların istifadəsi təşviq edilməlidir:

- Məhkəmə icraatının ayrı-ayrı mərhələlərində telefon vasitəsilə konfranslar və video konfranslar;

- Məhkəmə və tərəflər arasında, ümumilikdə, məhkəmə prosesinin iştirakçıları arasındakı bütün əlaqələrdə elektron kommunikasiya;

- Məhkəmə sənədlərinin uzaq məsafədən müzakirəsi;

- Qanun pozuntularının kodlaşdırılması.

**E.Cavabdehlik**

1.Öz hərəkəti və ya hərəkətsizliyi ucbatından ləngimələrə səbəb olan, habelə, məhkəmə prosesinin müddətinin idarə olunması üzrə müəyyən edilmiş standartlara və hədəflərə əməl edilməsinə əngəl törədən hər bir şəxs cavabdehlik daşımalıdır.

2.Vaxtın səmərəsiz idarə olunmasına görə fərdi cavabdehliklə yanaşı, hökumət də məhkəmə icraatının həddən artıq uzun çəkməsi səbəbilə istifadəçilərin üzləşdikləri nəticələrə görə birgə və ya ayrılıqda cavabdehlik daşıya bilər.

## IV.Məhkəmə sədrləri üçün təlimatlar

**A.Məlumatların toplanması**

1.Məhkəmə sədrləri məhkəmə prosesinin ən mühüm mərhələlərinə dair məlumat toplamalıdırlar. Onlar bu mərhələlər arasındakı müddətə dair protokol hazırlamalıdırlar. Monitorinq aparılan mərhələlərlə bağlı Məhkəmə Proseslərində Vaxtın İdarə olunması üzrə Yoxlama Vərəqəsi, Dördüncü Göstəriciyə xüsusi diqqət yetirilməlidir.[5]

---

[3] "CEPEJ Tədqiqatları № 3"ə nəzər salın: "Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsaslanan Avropa Şurasına üzv olan ölkələrdə məhkəmə proseslərinin müddəti"

[4] Məhkəmələrin və digər hökumət orqanlarının fəaliyyətsizlik dövrlərinə xüsusi diqqət yetirilməsi öhdəliyi həmçinin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsinə istinadən Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququndan irəli gəlir.

[5] Məhkəmə Proseslərində Vaxtın İdarə olunması üzrə Yoxlama Vərəqəsi (CEPEJ(2005)12 Düzəliş).

2.Toplanan məlumatlar məhkəmə icraçıları, hakimlər və ədalət mühakiməsinin həyata keçirlməsinə görə məsul mərkəzi orqanların iş haqqında məlumatlandırma məqsədi ilə əlçatan olmalıdır. Məlumatlar müvafiq formada tərəflərə və ictimaiyyətə də açıqlanmalıdır.

**B.Davamlı təhlil**

1.Toplanan məlumatlar müntəzəm olaraq təhlil edilməli, eləcə də, monitorinqlərin aparılması və fəaliyyət göstəricilərinin təkmilləşdirilməsi məqsədilə istifadə edilməlidir.

2.Toplanan məlumatların statistik qiymətləndirmə məqsədilə istifadəsi təmin edilməlidir. Məxfiliyin qorunması şərtilə, toplanan məlumatların müstəqil tədqiqatçılar və tədqiqat institutları tərəfindən elmi təhlillərin aparılması məqsədilə istifadəsinə icazə verilməlidir.

3.Müntəzəm olaraq, ən azı ildə bir dəfə müvafiq tövsiyələrlə birlikdə təhlilin nəticələrinə dair hesabatlar hazırlanmalıdır.

**C.Müəyyənləşdirilmiş hədəflər**

1.Daha yuxarı səviyyədə (milli, regional) müəyyənləşdirilən standartlardan və hədəflərdən əlavə, fərdi məhkəmələr səviyyəsində də xüsusi hədəflər təyin edilməlidir. Məhkəmə sədrləri hədəflərin müəyyənləşdirilməsi və ya hədəflərin müəyyənləşdirilməsində iştirak üçün yetərli səlahiyyət və müstəqilliyə sahib olmalıdırlar.

2.Hədəflər məqsədləri aydın şəkildə ifadə etməli və real olmalıdır. Onlar dərc edilməli və dövri qaydada yenidən qiymətləndirilməlidir.

3.Hədəflər məhkəmə fəaliyyətinin qiymətləndirilməsində istifadə oluna bilər. Onlar yerinə yetirilmədiyi təqdirdə, vəziyyəti düzəltmək üçün konkret addımlar atılmalı və tədbirlər görülməlidir.

**D.Böhran vəziyyətlərinin idarə olunması**

1.Məhkəmə səviyyəsində müəyyənləşdirilən hədəflərdən gözəçarpan yayınmalar müşahidə olunarsa, problemin səbəblərini sürətli və adekvat şəkildə aradan qaldırmaq üçün xüsusi vasitələr olmalıdır.

## V.Hakimlər üçün təlimatlar

**A.Məhkəmə proseslərin fəal surətdə idarə olunması**

1.Hakim məhkəmə prosesini fəal surətdə idarə etmək üçün kifayət qədər səlahiyyətə malik olmalıdır.

2.Ümumi qaydalara əsasən, hakimə müvafiq vaxt intervalları təyin etmək, vaxtın idarə olunması prosesini ümumi və xüsusi hədəflərə, həmçinin, hər bir fərdi məhkəmə işinin xüsusiyyətlərinə uyğunlaşdırmaq səlahiyyəti verilməlidir.

3.Məhkəmə qərarlarının planının hazırlanması üçün standart elektron şablonlar və məhkəmə qərarlarının çıxarılması üçün yardımçı proqram təminatı işlənib hazırlanmalı, hakimlər və məhkəmə heyəti tərəfindən istifadə olunmalıdır.

**B.Tərəflər və hüquqşünaslarla məhkəmə proseslərinin vaxtına dair razılaşma**

1.Məhkəmə proseslərinin müddətinin idarə olunması zamanı istifadəçilərin maraqlarına lazımi diqqət yetirilməlidir. Onlar ilkin mərhələdə prosesin planlaşdırılmasında iştirak etmək hüququna malikdirlər.

2.Hakim, mümkün olarsa, prosesin bütün iştirakçıları ilə prosessual təqvimlə əlaqədar razılığa gəlməyə çalışmalıdır. O, bu məqsədlə müvafiq məhkəmə işçilərinin (kargüzarlar) və informasiya texnologiyalarının yardımından istifadə etməlidir.

3.Razılaşdırılmış təqvimə edilən dəyişikliklər cüzi olmalı və yalnız üzrlü səbəblərdən tətbiq edilməlidir. Prinsipcə, müəyyənləşdirilmiş vaxt intervallarının uzadılması yalnız bütün tərəflərin razılığı ilə, yaxud ədalət naminə tələb edildiyi təqdirdə mümkün olmalıdır.

**C.Digər iştirakçıların (ekspertlər, şahidlər və b.) əməkdaşlığı və monitorinq**

1.Prosesin bütün iştirakçıları müəyyənləşdirilmiş hədəflərə və vaxt intervallarına əməl edilməsi üçün məhkəmə ilə əməkdaşlıq etmək öhdəliyi daşıyırlar.

2.Proses ərzində hakim bütün iştirakçıların, xüsusilə də, məhkəmə tərəfindən dəvət edilən və ya prosesə cəlb olunan şəxslərin, məsələn, şahidlərin və ekspertlərin vaxt intervalına riayət etmələrinə monitorinq etmək hüququna malikdir.

**D.Prosessual sui-istifadələrin qarşısının alınması**

1.Məhkəmə proseslərini qəsdən və məqsədli olaraq ləngidən bütün cəhdlərin qarşısı alınmalıdır.

2.Ləngimələrə və xoşagəlməz davranışlara qarşı prosessual sanksiyalar nəzərdə tutulmalıdır. Bu sanksiyalar tərəflərə, yaxud da onların təmsilçilərinə tətbiq oluna bilər.

3.Hüquqi peşəyə sahib olan şəxs prosesual hüquqları kobudcasına pozduğu və ya prosesin gedişatını əhəmiyyətli dərəcədə ləngitdiyi təqdirdə, bu barədə əlavə intizam tədbirlərinin görülməsi üçün müvafiq peşə təşkilatına məlumat verilməlidir.

**E.Məhkəmə qərarlarının əsaslandırılması**

1.Bütün məhkəmə qərarlarının əsaslandırılması forma etibarilə yığcam olmalı və yalnız əsas məsələlərlə məhdudlaşmalıdır. Məqsəd qərarın izah edilməsi olmalıdır. Yalnız məhkəmə qərarına aidiyyəti olan məsələlər nəzərə alınmalıdır.

2.Müvafiq hallarda, hakimin yazılı qərar əsasında şifahi hökm çıxarması mümkün olmalıdır.

## II HİSSƏ: İSTİNTAQDA ÇALIŞAN HÜQUQ MÜHAFİZƏ ORQANLARININ İŞÇİLƏRİ ÜÇÜN TƏLİMATLAR

### Giriş

Bu təlimatlar istintaqda calışan hüquq mühafizə orqanlarının işciləri üçün nəzərdə tutulur. Aidiyyəti ölkənin hüquq sistemindən asılı olmayaraq, bu xüsusi təlimatlar, əsas etibarilə, ilkin təhqiqat mərhələsi-məhkəmədən öncəki mərhələ üçün nəzərdə tutulmuşdur.

İstintaqda calışan hüquq mühafizə orqanlarının işçisi cinayət işinin təhqiqatının ilkin mərhələsi üzrə səlahiyyətli şəxs hesab olunur.

Bu sənədin I Hissəsində qeyd edilən digər təlimatlar müvafiq dəyişikliklər edilməklə istintaqda calışan hüquq mühafizə orqanlarının işçilərinə də şamil edilir:

### A.Planlaşdırma və məlumatların toplanması

1.Cinayət icraatının müddəti təhqiqat mərhələsində, cinayət təqibi mərhələsində və məhkəmədən əvvəl (xüsusi məhkəmə işləri üzrə orta davametmə müddətinin yaxud müəyyən növ məhkəmələrdən əvvəl prosesin orta davametmə müddətinin planlaşdırılması) planlaşdırılmalıdır. Planlaşdırma prosessual hüquqda qeyd olunan vaxt intervallarına uyğun olaraq, həm ümumi səviyyədə, həm də ayrı-ayrı məhkəmə işləri səviyyəsində həyata keçirilməlidir.

2.İstifadəçilər (şübhəli şəxslər, zərərçəkənlər, müdafiəçilər) məhkəmə prosesində vaxtın idarə olunması, məhkəmə tarixlərinin müəyyənləşdirilməsi, yaxud təhqiqatların başlanmasından etibarən bütün gələcək prosessual mərhələlərin müddətinin hesablanması ilə bağlı məlumatlandırılmalı və onlardan bu barədə məsləhət alınmalıdır.

### B.Müdaxilə

1.Cinayət təqibi proseslərinin müddətinə dair standartlardan və ya hədəflərdən yayınmalar müşahidə edildiyi və ya əvvəlcədən aşkarlandığı təqdirdə, bu cür yayınmaların nəticələrini aradan qaldırmaq üçün təcili tədbirlər görülməlidir.

2.Məhkəmə işlərində, hansında ki, ümumi davametmə müddəti ağlabatan müddətdə məhkəmə baxışı hüququnun pozulmasına səbəb ola bilər, həmin işlər xüsusi diqqətdə saxlanılmaıldır. Vaxtın ölçülməsi şəxsin təhqiqata cəlb olunması (məhkəmədən öncəki mərhələ) ilə başlayır.[6] Həbs və ya məhkəməyə qədər saxlama, şəxsə qarşı ilkin təhqiqata başlama və ya polis və ya prokurorluq tərəfindən rəsmi şəkildə qanun pozulmasında günahkar hesab edilmə hallarına xüsusi diqqət yetirilməlidir. Məhkəmə tərəfindən yekun qərar verildikdə və ya prokuror və ya məhkəmə tərəfindən ittiham ləğv edildikdə sayım bitir. Ağlabatan müddət meyarına əsasən vaxtın ölçülməsi üçün müvafiq tarixləri aydın şəkildə göstərən qeydlər məhkəməyə təqdim edilən işə daxil edilməlidir.

Xüsusi əhəmiyyətli hallara, məsələn, şübhəli şəxsin tutulması yaxud barəsində həbs-qəti imkan tədbirinin seçilməsi, eləcə də, polis zorakılığının baş verməsi hallarına xüsusi diqqət yetirilməlidir.

---

[6] CEPEJ(2012)16E hesabatına nəzər salın - Avropa Şurasına üzv olan ölkələrdə məhkəmə proseslərinin müddəti Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsaslanır .(31 iyul 2011), F. Calvez, N. Régis

Bu qeydlərdə aşağıdakıların tarixləri dəqiqliklə göstərilməlidir:

- cinayətin törədilməsi;
- şübhəli şəxsin həbsi;
- məhkəmədən əvvəl həbs-qəti imkan tədbirinin seçilməsi;
- təhqiqatların başlanması;
- ittiham aktının verilməsi.

3.Monitorinq məhkəmə proseslərində fəaliyyətsizlik dövrünün (gözləmə müddətinin) həddən artıq uzun çəkməməsini təmin etməli, belə hallar meydana gəldikdə məhkəmə prosesinin sürətləndirilməsi və ləngimələrin kompensasiya edilməsi üçün xüsusi səy göstərilməlidir.

**C.Məlumatların toplanması**

1.İstintaqda calışan hüquq mühafizə orqanlarının işçiləri və məhkəmə sədrləri cinayət mühakiməsi icraatının ən mühüm mərhələlərinə, xüsusilə də, məhkəmədən öncəki mərhələyə dair məlumat toplamalıdırlar. Onlar bu mərhələlər arasındakı müddətə dair protokol hazırlamalıdırlar. Monitorinq aparılan mərhələlərlə bağlı Məhkəmə Proseslərində Vaxtın İdarə olunması üzrə Yoxlama Vərəqəsinə, Dördüncü Göstəriciyə xüsusi diqqət yetirilməlidir.

2.Toplanan məlumatlar (yuxarıda qeyd edilən paraqrafa uyğun olaraq) İstintaqda calışan hüquq mühafizə orqanlarının işçilərinin, məhkəmə icraçılarının, hakimlərin və ədalət mühakiməsinin həyata keçirlməsinə görə məsul mərkəzi orqanların fəaliyyətinə bələdçilik etməlidir. Məlumatlar müvafiq formada istifadəçilərə və ictimaiyyətə də açıqlanmalıdır.

**D.Davamlı təhlil**

1.Toplanan məlumatlar müntəzəm olaraq təhlil edilməli, eləcə də, monitorinqlərin aparılması və fəaliyyət göstəricilərinin təkmilləşdirilməsi məqsədilə istifadə edilməlidir.

2.Müntəzəm olaraq, ən azı ildə bir dəfə müvafiq tövsiyələrlə birlikdə təhlilin nəticələrinə dair hesabatlar hazırlanmalıdır.

**E.Müəyyənləşdirilmiş hədəflər**

1.Daha yuxarı səviyyədə (milli, regional) müəyyənləşdirilmiş standartlardan və hədəflərdən əlavə, ayrı-ayrı prokurorluqlar səviyyəsində də xüsusi hədəflər təyin edilməlidir. İstintaqda calışan hüquq mühafizə orqanlarının işçiləri və məhkəmə sədrləri hədəflərin müəyyənləşdirilməsi və ya hədəflərin müəyyənləşdirilməsində iştirak üçün yetərli səlahiyyət və müstəqilliyə sahib olmalıdırlar.

2.Hədəflər aydın şəkildə ifadə edilməli və real olmalıdır. Onlar dərc edilməli və dövri qaydada yenidən qiymətləndirilməlidir.

3.Hədəflər məhkəmə fəaliyyətinin qiymətləndirilməsində istifadə oluna bilər. Onlar yerinə yetirilmədiyi təqdirdə, vəziyyəti düzəltmək üçün konkret addımlar atılmalı və tədbirlər görülməlidir.

**F.Böhran vəziyyətlərinin idarə olunması**

1.İstintaqda calışan hüquq mühafizə orqanlarının işçiləri tərəfindən müəyyənləşdirilən hədəflərin əldə olunmasında yayınmalar müşahidə olunarsa və ya əvvəlcədən proqnozlaşdırılarsa, onları aradan qaldırmaq üçün təcili tədbirlər görülməlidir.

**G.Tərəflər və hüquqşünaslarla məhkəmə proseslərinin vaxtına dair razılaşma, həmçinin, aidiyyəti orqanlar arasında əməkdaşlıq**

1.İstintaqda calışan hüquq mühafizə orqanlarının işcilər, mümkün olarsa, məhkəmə icraatının bütün iştirakçılarını prosessual təqvimin hazırlanması prosesinə cəlb etməyə çalışmalıdır. Bu məqsədlə onlar müvafiq inzibati işçilərinin (kargüzarlar və polislər) və informasiya texnologiyalarının yardımından istifadə etməlidirlər.

2.Razılaşdırılmış təqvimə edilən dəyişikliklər cüzi olmalı və yalnız üzrlü səbəblərdən tətbiq edilməlidir. Prinsipcə, müəyyənləşdirilmiş vaxt intervallarının uzadılması yalnız bütün iştirakçıların razılığı ilə, yaxud ədalət naminə tələb edildiyi təqdirdə mümkün olmalıdır.

Əlavə I

## AVROPADA MƏHKƏMƏ PROSESLƏRİN MÜDDƏTİNƏ MONİTORİNQ ÜZRƏ VAHİD TƏLİMATLAR (EUGMONT)

### 1. Məhkəmələr və məhkəmə prosesləri barədə ümumi məlumat

Monitorinq sistemi məhkəmə sisteminin ümumi quruluşu, xüsusilə də, məhkəmə proseslərində vaxtın idarə olunması barədə müvafiq ictimai məlumatlara sahib olmalıdır. Ümumi məlumata aşağıdakı göstərilən parametrlər haqqında dəqiq məlumatlar daxil olmalıdır:

-məhkəmələrin sayı və növləri, habelə, onların yurisdiksiyaları;
-məhkəmə proseslərinin sayı və növləri;
-prioritet (təxirəsalınmaz) məhkəmə prosesləri;

Məhkəmə sistemi barəsində məlumatlar müntəzəm olaraq yenilənməli və ən azı ildə bir dəfə (təqvim ilinin başlanğıcında/sonunda) açıqlanmalıdır. Məhkəmə proseslərinin sayı ilə bağlı aşağıdakı məlumatlar açıqlanmalıdır:

-monitorinq dövrünün (məsələn, təqvim ili) başlanğıcında həllini gözləyən məhkəmə işlərinin ümumi sayı;
-yeni məhkəmə işlərinin (monitorinq aparılan dövr ərzində, məsələn, təqvim ilində başladılan məhkəmə prosesləri) ümumi sayı;
-həll olunmuş məhkəmə işlərinin (monitorinq dövrü ərzində işin mahiyyəti üzrə həll edilməsi, şikayətin geri götürülməsi və ya dostcasına həll vasitəsilə yekunlaşan məhkəmə prosesləri) ümumi sayı;
-monitorinq dövrünün sonunda həllini gözləyən məhkəmə işlərinin ümumi sayı.

Yekunlaşdırılmış məhkəmə proseslərinə dair məlumatlar həmin proseslərin sona çatdırılma üsullarına görə bölünə bilər. Ən azı, işin mahiyyəti üzrə həll edilməsi ilə yekunlaşan proseslər başqa qaydada (şikayətin geri götürülməsi, barışıq, formal əsaslarla rəddetmə) yekunlaşdırılan proseslərdən fərqləndirilməlidir.

*Nümunə I:*

**Alpina dövlət məhkəmələri**

| | Məhkəmə və ya müvafiq orqan | 1.1.2008 tarixinə həllini gözləyən işlər | 2008-ci ildə yeni qaldırılan işlər | 2008-ci ildə həll edilmiş işlər | 31.12.2008 tarixinə həllini gözləyən işlər |
|---|---|---|---|---|---|
| 1 | A məhkəmələrində | | | | |
| 2 | B məhkəmələrində | | | | |
| 3 | C məhkəmələrində | | | | |
| | **CƏMİ** | | | | |

**N.B: "31.12.2008 tarixinə həllini gözləyən işlər" = "1.1.2008 tarixinə həllini gözləyən işlər"**
**+ "2008-ci ildə başladılan yeni işlər" – "2008-ci ildə həll edilən işlər".**

## 2. Məhkəmə işlərinin növlərinə dair məlumat

Məhkəmə işləri barədə məlumatlar həm ümumiləşdirilmiş, həm də məhkəmə işlərinin növlərinə görə ayrılmış olmalıdır. Bu məqsədlə məhkəmə işləri ümumi və universal kateqoriyalara, məsələn, mülki işlər, cinayət işləri və inzibati işlərə ayrılmalıdır.

Ümumi kateqoriyalar daxilində məhkəmə işlərinin daha təfərrüatlı növləri və ya qrupları (məsələn, əmək məsələləri, qətl cinayətləri işləri) ayırd edilməli və həmin məlumatlar müvafiq alt kateqoriyalara (məsələn, əmək məsələləri çərçivəsində işdən azad edilmə halları) bölünməlidir.

**Hər bir məhkəmə bu mərhələdə məhkəmə işləri üzrə özünəməxsus təsnifatdan istifadə edə bilər. Buna baxmayaraq, aşağıdakı dörd kateqoriya hər bir məhkəmə üçün icbaridir: çəkişmə prinsipi əsasında nikahın pozulması, işdən azad edilmə, qarət və qəsdən adam öldürmə.**

• Çəkişmə prinsipi əsasında nikahın pozulması halları: məsələn, səlahiyyətli məhkəmə orqanının qərarı əsasında iki şəxs arasındakı nikah müqaviləsinin pozulması. Məlumatlar ehtiva etməməlidir: nikahın tərəflər arasında ər-arvadın ayrılmasına və onun bütün nəticələrinə (qarşılıqlı razılaşma prosesi, hətta məhkəmə tərəfindən təmin edilsə belə) dair bağlanan razılaşma və ya inzibati prosedur əsasında pozulması hallarını. Əgər ölkənizdə nikahın pozulması ilə əlaqədar tamamilə məhkəmədən kənar prosedurlar həyata keçirilirsə, yaxud siz çəkişməli boşanma hallarına dair məlumatları ayıra bilmirsinizsə, lütfən bunu qeyd edin və əlavə izahlar verin. Bundan əlavə, ölkənizdə nikahın pozulması halları ilə əlaqədar icbari barışdırma tədbirləri və ya gözləmə müddəti nəzərdə tutulursa, yaxud məhkəmə prosesində barışdırma mərhələsi istisna edilirsə, lütfən bunu qeyd edin və əlavə izahlar verin.

• İşdən azad edilmə halları: işəgötürənin (özəl sektorda fəaliyyət göstərən) təşəbbüsü ilə məşğulluğa (əmək müqaviləsinə) xitam verilməsi ilə əlaqədar məhkəmə işləri. Bu, məsələn, intizam icraatına cəlb olunmuş dövlət məmurlarının işdən azad edilməsinə aid edilmir.

• Qarət güc tətbiq etməklə və ya hədələməklə şəxsi soymaqdır. Mümkünsə, küçə soyğunçuluğuna (çantanı götürüb qaçma, silahlı soyğun) dair rəqəmlər daxil edilməli, cibgirlik, hədə-qorxu yolu ilə mənimsəmə və şantaj hallarına dair məlumatlar isə istisna edilməlidir (Cinayət və Cinayət İcraatı üzrə Avropa İstinadlar Kitabında verilən tərifə əsasən). Cinayət cəhdləri məlumatlara daxil edilməməlidir.

• Qəsdən adam öldürmə hər hansı şəxsin bilərəkdən qətlə yetirilməsidir. Ölüm hallarına səbəb olan hücumlar, evtanaziya, uşaq qətlinə dair rəqəmlər məlumatlara daxil edilməli, intihar halları isə istisna edilməlidir (Cinayət və Cinayət İcraatı üzrə Avropa İstinadlar Kitabında verilən tərifə əsasən). Cinayət cəhdləri məlumatlara daxil edilməməlidir.

Digər Avropa sistemləri ilə daha ətraflı müqayisələrin aparılması məqsədi ilə məhkəmə sistemi tərəfindən istifadə olunan digər məhkəmə işi növlərinin (xüsusilə də, geniş yayılmamış kateqoriyaların) dəqiq tərifi və əhatə dairəsi daxil edilməlidir.

*Nümunə II:*

**Danubia şəhər məhkəməsi**

| | İşin növü | 1.1.2008 tarixinə həllini gözləyən işlər | 2008-ci ildə yeni qaldırılan işlər | 2008-ci ildə həll edilmiş işlər | 31.12.2008 tarixinə həllini gözləyən işlər |
|---|---|---|---|---|---|
| **1** | **Mülki işlər** | | | | |
| 1a | Nikahın çəkişmə prinsipi əsasında pozulması halları | | | | |
| 1b | İşdən azad edilmə halları | | | | |
| … | … | | | | |
| **2** | **İnzibati işlər** | | | | |
| 2a | … | | | | |
| … | | | | | |
| **3** | **Cinayət işləri** | | | | |
| 3a | Qəsdən adam öldürmə | | | | |
| 3b | Qarət halları | | | | |
| … | … | | | | |
| | **CƏMİ** | | | | |

## 3. Məhkəmə proseslərinin müddətinə dair məlumat

3a. Davametmə müddəti və orta/maksimum müddətlərə əsasən məhkəmələrdə işlərə baxılma müddətləri

Hər bir məhkəmə məhkəmədə baş tutan proseslərin davametmə müddəti barədə məlumat toplamalıdır. Verilən dövr ərzində (məsələn, təqvim ili) həllini gözləyən və həll olunmuş məhkəmə işlərinə ayrı-ayrılıqda nəzarət edilməli və onların davametmə müddətinə dair məlumatlar həmin müddətlərə müvafiq olaraq qruplara ayrılmalıdır. Məsələn, 1 aydan az müddətə, 1-3 ay ərzində, 4-5 ay ərzində, 7-12 ay ərzində, 1-2 il ərzində, 2-3 il ərzində, 3-5 il ərzində, 5 ildən çox müddətə həllini gözləyən, yaxud həll olunmuş məhkəmə işləri. Məhkəmə işlərinin davametmə müddətinə görə qruplaşdırılılmasından əlavə, məhkəmə proseslərinin orta davametmə müddəti hesablanmalı, eləcə də, minimal və maksimal vaxt intervalları göstərilməlidir. Məhkəmə icraatı prosesi yalnız konkret bir məhkəmədə məhkəmə işinin baxılması üçün tələb olunan vaxtı, məsələn, işin məhkəməyə daxil olması ilə və yekunlaşdırılması (məsələn, yekun qərarın çıxarılması, apellyasiya üçün daha yuxarı instansiyalı məhkəməyə ötürülməsi və s.) arasındakı müddəti ehtiva etməlidir. Mümkün olarsa, yekunlaşdırılan məhkəmə işləri üzrə məhkəmə icraatının müddətinə dair məlumatlar işin tam araşdırılmasından sonra yekunlaşdırılan (məsələn, işin mahiyyəti üzrə həll edilməsi) və digər qaydada yekunlaşdırılan (məsələn, şikayətin geri götürülməsi, barışıq, yurisdiksiyanın olmaması və s.) məhkəmə işlərinə dair məlumatlardan fərqləndirilməlidir.

Nümunə III:

**Danubia şəhər məhkəməsi**

| | *2008-ci ildə yekunlaşdırılmış məhkəmə proseslərinin davametmə müddəti (31.12.2008-ci il tarixinə)* | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | **Həll olunmuş məhkəmə işlərinin sayı** | **Dövrün sonunda həllini gözləyən məhkəmə işlərinin sayı** | **< 1 ay.** | **1-3 ay** | **4-6 ay** | **7-12 ay** | **1-2 il** | **2-3 il** | **3-5 il** | **5 il>** | **Məhkəmə icraatının müddəti (günlərlə)** |
| **1** | **Mülki işlər** | | | | | | | | | | | |
| 1a | Nikahın çəkişmə prinsipi əsasında pozulması halları | | | | | | | | | | | |
| 1b | İşdən azad edilmə halları | | | | | | | | | | | |
| … | … | | | | | | | | | | | |
| **2** | **İnzibati işlər** | | | | | | | | | | | |
| 2a | … | | | | | | | | | | | |
| … | | | | | | | | | | | | |
| **3** | **Cinayət işləri** | | | | | | | | | | | |
| 3a | Qəsdən adam öldürmə | | | | | | | | | | | |
| 3b | Qarət halları | | | | | | | | | | | |
| … | … | | | | | | | | | | | |
| | **MƏHKƏMƏ İŞLƏRİNİN ÜMUMİ SAYI** | | | | | | | | | | | |

3b. Məhkəmə icraatının ümumi davametmə müddətinə dair məlumatlar

Məhkəmədə baxılan işlərin ümumi davametmə müddətlərinə görə qruplaşdırılması xüsusilə vacibdir. Ümumi davametmə müddəti məhkəmə icraatının başlanması və işə yekun vurulması arasındakı müddəti əhatə edir (Vaxtın idarə olunması üzrə CEPEJ yoxlama vərəqəsinə və SATURN Təlimatlarına nəzər salın). Mümkün olarsa, qərarların icra edilməsinə sərf olunan müddət də məhkəmə icraatının ümumi davametmə müddətinə dair məlumatlara əlavə edilməlidir.

## 4.Məhkəmə icraatının aralıq mərhələlərinin və gözləmə müddətinin monitorinqi

Vaxt intervallarına nəzarət təkcə məhkəmə icraatının başlanğıcı və sonu arasındakı ümumi müddətə dair məlumatların toplanması ilə məhdudlaşdırılmamalıdır. Məhkəmə icraatının aralıq mərhələlərinin davametmə müddətinə dair məlumatlar da toplanmalıdır. Ən azı monitorinq aparılan mərhələlərə məhkəmə icraatına hazırlıq mərhələsinin (məsələn, məhkəmə icraatının başlanması və mahiyyəti üzrə ilk dinləmə), əsas mərhələnin (mahiyyəti üzrə ilk dinləmədən son dinləməyədək) və məhkəmənin yekun mərhələsinin (son dinləmədən qərarın çıxarılmasınadək) davametmə müddəti daxil edilməlidir. Həmçinin, apellyasiya məhkəmələrinin və ya digər hüquqi yardım vasitələrinin davametmə müddətinə dair məlumat təmin edilməlidir. Fəaliyyətsizlik dövrünün (gözləmə müddəti) xüsusi monitorinqi aparılmalıdır.

Bu statistika aidiyyəti orqan (Ədliyyə Nazirliyi, Məhkəmə Hüquq Şurası və s.) tərəfindən milli səviyyədə hazırlanır.

*Nümunə IV:*

**Danubia şəhər məhkəməsi**

| | İşin növü | *Məhkəmə icraatının aralıq mərhələlərin orta davametmə müddəti (31.12.2008-ci il tarixinə)* | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | ***Məhkəmə mərhələsi*** | | | ***Hüquqi müdafiə vasitələri*** | | |
| | | **Məhkəmə prosesinə hazırlıq** | **Dinləmələr** | **Məhkəmə qərarı** | **Apellyasiya** | **Xüsusi vasitə** | **Digər** |
| **1** | **Mülki işlər** | | | | | | |
| 1a | Nikahın çəkişmə prinsipi əsasında pozulması halları | | | | | | |
| 1b | İşdən azad edilmə halları | | | | | | |
| … | … | | | | | | |
| **2** | **İnzibati işlər** | | | | | | |
| 2a | … | | | | | | |
| … | | | | | | | |
| **3** | **Cinayət işləri** | | | | | | |
| 3a | Qəsdən adam öldürmə | | | | | | |
| 3b | Qarət halları | | | | | | |
| … | … | | | | | | |
| | **CƏMİ** | | | | | | |

## 5. Analitik məlumatlar və göstəricilər

Məhkəmələr, məhkəmə işlərinin sayı və davametmə müddətlərinə dair ümumi məlumata, eləcə də, məhkəmələr və ədliyyə sisteminə dair digər aidiyyəti məlumatlara əsasən, məhkəmələrin fəaliyyətini qiymətləndirmə göstəriciləri və meyarları kimi əlavə vasitələrdən də istifadə oluna bilər.

O cümlədən, aşağıdakı göstəricilər məhkəmələrdə vaxt intervallarının başa düşülməsi üçün önəmli davametmə müddəti və digər amillərin təhlili və monitorinqi üçün istifadə oluna bilər:

**1.Məhkəmə işlərinin həll olunma faizi (CR göstəricisi):** Verilən dövrün sonunda yeni və tamamlanmış məhkəmə işlərinin nisbətidir.

$$\text{CR göstəricisi (\%)} = \frac{\text{həll edilmiş işlər}}{\text{daxil olan işlər}} \times 100$$

**Nümunə:** Məhkəməyə təqvim ilində 500 yeni iş təqdim edilibsə və məhkəmə eyni zamanda 550 işi tamamlayıbsa, CR göstəricisi 110% təşkil edir. Məhkəmə 400 işi tamamlasaydı, CR göstəricisi 80% olardı. CR göstəricisinin 100 %-dən yüksək olması həllini gözləyən işlərin sayının azaldığını göstərir.

**2.Məhkəmə işlərinin dövriyyə əmsalı:** Verilən dövrün sonunda həll olunmuş və həll olunmamış məhkəmə işlərinin sayı arasındakı əlaqədir. Bu il ərzində (və ya müşahidə aparılan müddət ərzində) həll olunmuş və ya həll olunmamış standartlaşdırılmış məhkəmə işi növlərinin sayının hesablanmasını tələb edir.

$$\text{Məhkəmə işlərinin dövriyyə əmsalı} = \frac{\text{həll edilmiş işlərin sayı}}{\text{müddətin sonunda həll edilməmiş işlərin sayı}}$$

**3.Dispozisiya müddəti (DT göstəricisi):** müşahidə dövrü ərzində həll olunan məhkəmə işlərinin sayı ilə müşahidə dövrünün sonunda həll olunmamış qalan məhkəmə işlərinin sayını müqayisə edir. İlk öncə, həll olunan məhkəmə işlərinin sayı müşahidə dövrünün sonunda həll olunmamış qalan məhkəmə işlərinin sayına bölünür, daha sonra 365 əldə olunan rəqəmə bölünür ki, bu da göstəricinin günlərlə ifadə edilməsinə imkan yaradır. Bu əmsal qəbul edilən işlərin məhkəmə sistemi tərəfindən nə dərəcədə tez təhvil verildiyini, yəni, işin növündən asılı olaraq, hansı müddətə həll olunduğunu müəyyən edir. Bu göstərici məhkəmə sisteminin məhkəmə işləri axınını necə idarə etdiyini qiymətləndirməyə imkan verir.

$$\text{Dispozisiya müddəti} = \frac{365}{\text{Məhkəmə işlərinin dövriyyə əmsalı}}$$

Digər göstəricilər (məlumat üçün):

**4.Səmərəlilik əmsalı (ER göstəricisi):** İl ərzində məhkəmədə xidmət göstərən işçi heyətin sayı və ilin sonunda həmin məhkəmədə baxılan məhkəmə işlərinin məhsuldarlığı arasında əlaqənin göstəricisidir.

**5.Ümumi qalıq (TB göstəricisi):** Verilən dövrün sonunda həll edilməmiş qalan məhkəmə işlərinin sayıdır, dövrün başlanğıcında həllini gözləyən məhkəmə işlərinin ümumi sayı ilə eyni dövrdə həll olunmuş məhkəmə işlərinin sayı arasındakı fərq kimi səciyyələndirilir. Nümunə: Təqvim ilinin başlanğıcında həllini gözləyən 1000 məhkəmə işi vardısa və məhkəmə təqvim ili ərzində 750 məhkəmə işinə xitam vermişdirsə, təqvim ilinin sonunda ümumi qalıq 250 məhkəmə işi təşkil edəcək.

**6.Qalıq məhkəmə işlərinin həlli (BR göstəricisi):** Bütün qalıq məhkəmə işlərinin həlli üçün tələb olunan, ay və günlərlə ifadə olunan, məhkəmə işlərinin sayı və cinayətin açılma müddəti arasındakı nisbət əsasında hesablanan vaxtdır. Nümunə: Dövrün sonunda bütövlükdə 100 qalıq məhkəmə işi varsa və məhkəmə həmin dövrdə 200 işə yekun vurursa, BR göstəricisi 6 ay və ya 180 gün təşkil edir.

**7.Hər hakimə düşən məhkəmə işlərinin sayı (CPJ göstəricisi):** İşin növündən asılı olaraq verilən dövr ərzində hər hakimə düşən işlərin sayı. Nümunə: Əgər təqvim ilinin sonunda məhkəmədə həllini gözləyən 600 mülki iş varsa və onlara 4 hakim baxırsa, CPJ göstəricisi 150-dir.

**8.Standartlardan kənara çıxmalar (SD göstəricisi):** Verilən dövr ərzində məhkəmə işlərinin növlərinə görə müəyyənləşdirilmiş hədəflərdən sapmaların faizlə və ya günlə ifadəsidir. Nümunə: Nikahın çəkişmə prinsipi əsasında pozulması məsələlərinin birinci instansiyada həlli üzrə hədəf müddət 200 gün müəyyən edilmişdirsə və təqvim ilində bu cür məhkəmə işlərinin orta davametmə müddəti 240 gün təşkil etmişdirsə, SD göstəricisi 40 gün və ya 20% təşkil edir.

# Əlavə II – İcmal Nümunələri

*Qeyd edək ki, "Əlavə II"-də riyazi düsturlardan ibarət Excel sənədləri verilmişdir, məhkəmə orqanları bu sənədin elektron versiyasını bilavasitə bu ünvandan əldə edə bilərlər: www.coe.int/cepej , "SATURN Mərkəzi" sənədi.*

## Məhkəmə üzrə işlərin sayı – V2.0

| Məhkəmə və ya məhkəmə filialı | İşlər | | | |
|---|---|---|---|---|
| | əvvəlki dövrdən qalan | bu dövr ərzində açılan | həll edilmiş | bu dövrün sonunda həllini gözləyən işlər |
| Məhkəmə A | 362 | 1027 | 1089 | 300 |
| Məhkəmə B | 397 | 1131 | 1210 | 318 |
| Məhkəmə C | 279 | 771 | 853 | 197 |
| Məhkəmə D | 262 | 1072 | 1056 | 278 |
| Məhkəmə E | 279 | 1085 | 1094 | 270 |
| Məhkəmə F | 999 | 1014 | 1312 | 701 |
| Məhkəmə G | 877 | 1086 | 1374 | 589 |
| Məhkəmə H | 0 | 7 | 7 | 0 |
| CƏMİ | 3455 | 7193 | 7995 | 2653 |

## Növ üzrə işlərin sayı – V2.0

| İşlərin növü | İşlər | | | |
|---|---|---|---|---|
| | əvvəlki dövrdən qalan | bu dövr ərzində açılan | həll edilmiş | bu dövrün sonunda həllini gözləyən işlər |
| **1. Mülki işlər** | | | | |
| Çəkişmə prinsipi əsasında nikahın pozulması halları | 362 | 1027 | 1089 | 300 |
| İşdən azad edilmə halları | 279 | 771 | 853 | 197 |
| .... | 0 | 0 | 0 | 0 |
| **2. İnzibati işlər** | | | | |
| .... | 0 | 0 | 0 | 0 |
| **3. Cinayət işləri** | | | | |
| Qarət halları | 279 | 1085 | 1094 | 270 |
| Qəsdən adam öldürmə | 877 | 1086 | 1374 | 589 |
| .... | 0 | 0 | 0 | 0 |
| CƏMİ | 1797 | 3969 | 4410 | 1356 |

# İşlərin müddəti V.2

| Məhkəmə və ya məhkəmə filialı | İşlər | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Bölgü | | | | | | | | | | |
| | Həll edilmiş işlər | Bu tarixə həllini gözləyən işlər | < 1 ay | 1-3 ay | 4-6 ay | 7-12 ay | 1-2 il | 2-3 il | 3-5 il | > 5 il | Gözləmə müddəti günlərlə |
| **1. Mülki işlər** | | | | | | | | | | | |
| Çəkişmə prinsipi əsasında nikahın pozulması halları | 5456 | 1915 | 668 | 1675 | 1172 | 1137 | 781 | 23 | 0 | 0 | 128,11 |
| İşdən azad edilmə halları | 1371 | 428 | 244 | 774 | 231 | 81 | 40 | 1 | 0 | 0 | 113,95 |
| .... | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 365,00 |
| **2. İşdən azad edilmə halları** | | | | | | | | | | | |
| .... | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 365,00 |
| **3. İşdən azad edilmə halları** | | | | | | | | | | | |
| Qarət halları | 1161 | 314 | 438 | 530 | 147 | 35 | 11 | 0 | 0 | 0 | 98,72 |
| Qəsdən adam öldürmə | 7 | 0 | 2 | 4 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 52,14 |
| .... | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 365,00 |
| **Cəmi** | 7998 | 2660 | 1355 | 2986 | 1554 | 1256 | 835 | 27 | 3 | 3 | 121,39 |

$$\text{Gözləmə müddəti} = \frac{365}{(\text{həll edilmiş işlərin sayı / həll edilməmiş işlərin sayı})}$$

## Orta işə baxılma müddəti

| İşə baxılma prosesinin aralıq mərhələlərin orta müddəti | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Məhkəmə mərhələsi | | | Hüquqi müdafiə vasitələrindən istifadə mərhələsi | | |
| **İşlərin növü** | **Hazırlıq (günlərin sayı)** | **Dinləmələr (günlərin sayı)** | **Hökm (günlərin sayı)** | **Apellyasiya (həftələrin sayı)** | **Xüsusi vasitələr (həftələrin sayı)** | **Digər (həftələrin sayı)** |
| **1. Mülki işlər** | | | | | | |
| Çəkişmə prinsipi əsasında nikahın pozulması halları | 80 | 20 | 80 | 18 | 18 | _ |
| İşdən azad edilmə halları | 60 | 2 | 20 | 18 | _ | _ |
| .... | | | | | | |
| **2. İnzibati işlər** | | | | | | |
| .... | | | | | | |
| **3. Cinayət işləri** | | | | | | |
| Qarət halları | 150 | 30 | 70 | 20 | 15 | _ |
| Qəsdən adam öldürmə | 120 | 20 | 60 | 20 | 12 | _ |
| .... | | | | | | |